# QARABAĞDA TURİZMİN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ

**Şəhla ƏLİZADƏ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan*
: 0000-0001-8079-3255

https://doi.org/10.30546/12000021.2025.1.0026

**Xülasə.** Bu gün turizm dünya miqyasında ən güclü sənaye sahələrindən biri kimi çıxış edir. Onun dinamik inkişafı nəticəsində turizm əsrin mühüm iqtisadi hadisələrindən biri kimi qiymətləndirilir. Bir sıra ölkələrin iqtisadiyyatında turizm sahəsi həm ümumi daxili məhsulun artmasına, həm də yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun genişlənməsinə ciddi təsir göstərir. Bundan başqa turizm nəqliyyat, rabitə, tikinti və kənd təsərrüfatı kimi aparıcı sahələr üçün mühüm stimullaşdırıcı amil rolunu oynayaraq sosial-iqtisadi tərəqqini sürətləndirir. Qarabağ iqtisadi rayonu unikal flora və faunası, zəngin su ehtiyatları, meşə massivləri və dağ ekosistemləri ilə seçilir. Bu səbəbdən burada turizmin inkişafı yalnız iqtisadi məqsədlərlə deyil, həm də dayanıqlı inkişaf prinsipləri əsasında aparılmalıdır. Turizm axınının artması bəzən təbiətə mənfi təsir göstərə bilər (məsələn, tullantıların artması, meşələrin zədələnməsi, su hövzələrinin çirklənməsi). Buna görə ekoloji qorunma tədbirləri turizm planlaması ilə paralel şəkildə həyata keçirilir. Məqalədə Azərbaycanın turizm sektorunun iqtisadiyyata təsirləri, bu sektor üzrə bir sıra göstəricilər təhlil olunmuş, həmçinin Qarabağ iqtisadi rayonunda turizmin müasir vəziyyəti araşdırılmışdır.

**Açar sözlər:** Qarabağ, turizm sektoru, iqtisadi inkişaf, davamlı inkişaf, ekoturizm, Böyük Qayıdış

## Giriş

Turizm sahəsinin inkişafı bilavasitə iqtisadi, sosial və texnoloji tərəqqi ilə bağlıdır. Cəmiyyətin ümumi inkişaf göstəriciləri turizmə olan marağı və onun imkanlarını formalaşdırır. İqtisadi cəhətdən inkişaf etmiş sənaye ölkələrində əhalinin rifah səviyyəsinin artması, insanların daha uzunmüddətli məzuniyyət hüququna malik olması və pensiya təminatının yüksək olması turizm sənayesinin genişlənməsinə güclü təkan verir. Bu amillər insanların səyahətə daha çox vəsait və vaxt ayırmasına şərait yaradır, nəticədə turizm kütləvi xarakter alır və iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilir [1].

Turizm sektoru dünyada ən sürətlə inkişaf edən sahələrdən biridir və ölkələrin iqtisadiyyatında mühüm rol oynayır. Turist tələbi həm sosial, həm də kütləvi xarakter daşıyan anlayışdır. O, müxtəlif təsir mexanizmləri əsasında formalaşır və bu təsirlər tələb səviyyəsini artırmaq və ya azaltmaq gücünə malikdir [2].

**Cədvəl 1.**

**Turizm bazarındakı tələbə təsir edən başlıca amillər**

| | |
|---|---|
| Ümumi iqtisadi faktorlar | istehlakçıların rifah səviyyəsi, iş vaxtı ilə asudə vaxtın balansı, investisiya zonalarının fəaliyyəti və dövlətin turizm sahəsində qəbul etdiyi inkişaf proqramları. |
| Sosial-demoqrafik faktorlar | yaş, cins, peşə, təhsil, sosial mövqe, ailə vəziyyəti, gəlir səviyyəsi, ailə üzvlərinin sayı, yaşayış məkanı və məntəqənin tipi (şəhər və ya kənd). |
| Mədəni və psixoloji faktorlar | dəyərlər sistemində üstünlük verilən sahələr, istehlak vərdişləri və geniş kredit imkanlarının olması. |
| Fərdi və davranış faktorları | şəxsi maraqlar, həyat tərzi, asudə vaxtın dəyərləndirilməsi, motivasiya, mənəvi dəyərlərə bağlılıq, bağçılıq meylləri və dini ziyarət ənənələri. |

Azərbaycan da zəngin təbii və mədəni irsi, strateji coğrafi mövqeyi ilə turizmin inkişafı üçün böyük potensiala malikdir. Azərbaycanda turizmin inkişaf strategiyası aşağıdakı əsas prinsiplərə əsaslanır [3]:

1. Turizm əsaslı iqtisadi artım ilə keyfiyyətli xidmət və turizm resurslarından dayanıqlı istifadə edilməsi ehtiyaclarını uzlaşdırmaq məqsədilə keyfiyyət və kəmiyyət yanaşmalarının balanslaşdırılması;

2. Təbii və mədəni irsin mühafizəsi, eləcə də ətraf mühitin qorunmasını hədəf alan məsuliyyətli planlama və idarəetmə təcrübələrinin tətbiqi;

3. Dövlətin sosial-iqtisadi inkişafa dair milli strategiyası ilə uyğunluğun təmin edilməsi;

4. Kənd yerlərində dayanıqlı və inklüziv inkişafın təşviqi yolu ilə Bakı və bölgələr arasında inkişaf fərqlərinin azaldılması;

5. Dövlət-özəl tərəfdaşlığının təşviqi və Azərbaycanın regional səviyyədə rəqabət qabiliyyətliliyinin artırılması;

6. Yerli sakinlər tərəfindən istər yerli, istərsə də beynəlxalq ziyarətçilərə müxtəlif məxsusi turizm təcrübələrinin təqdim edilməsi məqsədilə mövcud yerli resurslardan istifadə edilməsinə diqqət ayrılması;

7. Qabaqcıl beynəlxalq təcrübənin əsas götürülməsi və beynəlxalq əməkdaşlıqdan maksimum fayda əldə edilməsi.

Azərbaycanın turizm sektoru bir çox insan üçün məşğulluq sahəsi yaratmaqdadır. Otelçilikdən tutmuş nəqliyyat və bələdçi xidmətlərinə qədər müxtəlif sahələrdə turizm sayəsində həm birbaşa, həm də dolayı iş imkanları yaranır. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən qeyd etmək olar ki, daxili turizmin payı daha yüksəkdir (64%), gəlmə turizmin payı isə 36.0% təşkil edir (gəlmə turizmdə əsas hərəkət vasitəsi təyyarədir). Yerləşmə xidmətləri turizm istehlakının mühüm hissəsini təşkil edir (ümumi xərclərin ~18%-i).

**Cədvəl 2.**

Ölkə ərazisinə daxil olan və ölkə ərazisini tərk edənlərin sayı, nəfər

| İllər / Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| Ölkə ərazisinə daxil olanların sayı<br>o cümlədən, | 87632,7 | 2015,1 | 1699,7 | 3076,9 | 3908,1 | 4765,0 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 3170,4 | 795,7 | 791,8 | 1602,3 | 2085,8 | 2626,7 |
| Ölkə ərazisini tərk edənlərin sayı<br>o cümlədən, | 8731,6 | 2013,2 | 1732,7 | 3054,7 | 3952,3 | 4779,9 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 3163,9 | 848,6 | 758,2 | 1565,2 | 2083,6 | 2621,0 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi, Turizm, 2025 [4]

Göründüyü kimi 2020-ci ildə ölkə ərazisinə daxil olan və ölkə ərazisini tərk edənlərin sayı  Covid-19 koronavirus pandemiyasının Azərbaycanda yayıldığı dövrə təsadüf etdiyindən təhlil etdiyimiz göstəricilərin səviyyəsi aşağı düşmüş, 2022-ci ildən başlayaraq isə yenidən yüksəlməyə başlamışdır (təqribən 2 dəfə). Pandemiyadan sonra ölkəyə daxil olan turistlərin getdikcə daha çox hissəsini əcnəbilər təşkil edir, bu da xarici turizmin bərpa olunduğunu göstərir.

Son illərdə turistlərin xidmət keyfiyyətinə olan gözləntiləri xeyli yüksəlmişdir. Səyahətlərin intensivləşməsi nəticəsində insanlar beynəlxalq standartlara uyğun xidmətlərlə

tanış olur və daha komfortlu şərait tələb edirlər. Əhalinin hərəkətliliyi də artmışdır, belə ki, şəxsi avtomobilə sahib olanlar asanlıqla ölkə daxilində və ya xaricdə səyahət edə bilirlər. Bununla yanaşı, turistlərin səyahət müddətində xərclədikləri vəsaitlər də əhəmiyyətli dərəcədə çoxalmışdır.

2024-cü ilin proqnozu 2019-cu illə müqayisədə hələ də müəyyən qədər aşağıdır, lakin dinamika göstərir ki, yaxın illərdə əvvəlki rekorda çatmaq mümkündür.

Ölkədə turizmin inkişafı eyni zamanda kiçik bizneslə məşğul olan fərdi sahibkarlar, həmçinin istehsalçıların (turistlər üçün suvenirlər və yerli məhsulların satışı) gəlir səviyyəsinin yüksəlməsinə təsir göstərir. Belə ki, turistlər yalnız xidmətlərdən deyil, həm də müxtəlif məhsullar alırlar.




Diaqram 1. Turagent və turoperatorların fəaliyyətinin əsas göstəricilərinin dinamikası




Diaqram 2. Turagent və turoperatorların əldə etdiyi gəlir, mln. manat

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi, Turizm, 2025

Göründüyü kimi 2020-ci ildə turagent və turoperatorların və orada işləyənlərin sayı aşağı düşmüş, 2022-ci ildən başlayaraq yenidən yüksəlməyə başlamışdır. Təbii olaraq bu dövrdə onlar tərəfindən əldə olunmuş gəlirin səviyyəsi də aşağı düşmüşdür.

Turizmin inkişafı ilə əlaqədar yol, kommunikasiya, otel və ictimai yerlərin təkmilləşdirilməsi ölkənin ümumi infrastrukturuna da müsbət təsir göstərir ki, bu da öz növbəsində həm turizm, həm də yerli əhalinin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarır.

Son illərdə işğaldan azad olunmuş ərazilərdə gedən bərpa və quruculuq işlərinin nəticəsində Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın bir sıra sahələri üzrə yüksəliş dinamikasını görmək olar. Digər sahələrlə yanaşı turizm sektorunda da müsbət tendensiyanı izləmək mümkündür [2].

Qarabağ iqtisadi rayonu təbii-coğrafi mövqeyi, zəngin tarixi-mədəni irsi və unikal ekosistemləri ilə Azərbaycanın ən perspektivli turizm məkanlarından biridir. Dağlıq relyef, saf iqlim, mineral bulaqlar, meşə massivləri və çaylar burada ekoturizm, dağ turizmi, sağlamlıq və müalicəvi turizm istiqamətlərinin inkişafı üçün əlverişli şərait yaradır. Turizmin inkişafında bu regionun mədəni irsi də xüsusi önəm daşıyır. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın ərazilərində yüzlərlə tarixi abidə, məscid, məbəd, qala və digər mədəniyyət nümunələri mövcuddur. Xüsusilə Şuşa şəhəri həm Azərbaycanın musiqi beşiyi, həm də tarixi memarlıq abidələrinin qorunduğu mərkəz kimi turistlər üçün cəlbedici məkana çevrilir.

Azərbaycan hökuməti "Böyük Qayıdış" proqramı çərçivəsində Qarabağda infrastruktur layihələrinə (hava limanları, avtomobil və dəmir yolları, mehmanxana kompleksləri) böyük investisiyalar ayırır. Perspektiv istiqamətlər kimi ekoturizm və dağ turizmi (Laçın, Kəlbəcər və Şahdağ silsiləsi yaxınlığında yaylaqlar, dağ gölləri və təmiz təbiət), sağlamlıq turizmi (Kəlbəcər və İstisu kimi mineral bulaqların müalicəvi xüsusiyyətləri), mədəni turizm (Şuşa şəhəri, məscidlər, tarixi məbədlər, Qarabağ xalçaçılıq ənənələri), ziyarət turizmi (Qarabağ şəhidlərinin xatirəsinə ucaldılmış memorial komplekslər və dini abidələr), idman və macəra (qış turizmi və dağ xizək kurortları üçün əlverişli şərait) turizmini göstərmək olar [5].

**Cədvəl 3.**

Qarabağ iqtisadi rayonu üzrə turizm sektorunun əsas göstəriciləri

| İllər / Göstəricilər | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid | 4 | 7 | 11 | 14 | 14 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri, min. manat | 126.6 | 247.2 | 931.0 | 3583.9 | 6076.7 |
| İaşə dövriyyəsi, min manat | 19420.3 | 16400.8 | 19451.7 | 32619.3 | 42142.4 |
| İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı, vahid | 446 | 610 | 671 | 697 | 755 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi, Regionlar, 2024 [6]

Cədvələ əsasən qeyd etmək olar ki, 2015-2023-cü illər dövründə mehmanxanaların sayı 3,5 dəfə, iaşə obyektlərinin sayı isə 69.0% artıb. Bu, turizm infrastrukturunun genişlənməsinin və investisiya axınının artmasının göstəricisidir. Eyni zamanda daxili bazarda rəqabətin artdığını və xidmət şəbəkəsinin genişləndiyini göstərir. Obyektlərin sayı ilə yanaşı, onların gəlirlilik qabiliyyəti daha sürətlə yüksəlmişdir. Yəni yalnız infrastruktur deyil, həm də turizm xidmətlərinə olan tələb artıb. Eyni zamanda 2015-2023-cü illər arasında iaşə dövriyyəsi 2,2 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, turizmin inkişafı ilə ekologiyanın qorunması məsələsi bir-biri ilə sıx bağlıdır. Qarabağda turizmin inkişaf etdirmək və eyni zamanda ekologiyanın qorunmasını necə təmin etmək olar?

Qarabağ bölgəsi unikal flora və faunası, zəngin su ehtiyatları, meşə massivləri və dağ ekosistemləri ilə seçilir. Bu səbəbdən burada turizmin inkişafı yalnız iqtisadi məqsədlərlə deyil, həm də dayanıqlı inkişaf prinsipləri əsasında aparılmalıdır. Turizm axınının artması bəzən təbiətə mənfi təsir göstərə bilər (məsələn, tullantıların artması, meşələrin zədələnməsi, su hövzələrinin çirklənməsi). Buna görə ekoloji qorunma tədbirləri turizm planlaması ilə paralel şəkildə həyata keçirilir:

1. Dövlətin həyata keçirdiyi tədbirlər sırasında “Yaşıl enerji zonası”-nı qeyd etmək lazımdır. Qarabağ və Şərqi Zəngəzur rəsmi olaraq Azərbaycanın ilk yaşıl enerji zonası elan edilib. Bu o deməkdir ki, bölgədə bərpa olunan enerji (günəş, külək, su elektrik) əsas enerji mənbəyi olacaq. Bu həm ekologiyanı qoruyur, həm də turizm üçün müasir və ekoloji təmiz şərait yaradır [7].

2. Milli parkların və qoruqların yaradılması planlaşdırılır. Xüsusilə Laçın və Kəlbəcər bölgəsində yeni milli parkların yaradılması nəzərdə tutulur. Bu, həm təbiətin mühafizəsini təmin edir, həm də ekoturizm üçün imkanlar açacaq.

3. İnfrastruktur layihələrində, yəni yeni hava limanları, yollar və mehmanxanaların inşasında beynəlxalq ekoloji standartlara riayət edilir.

4. Qarabağda kütləvi turizmlə yanaşı, ekoturizm və kənd turizmi inkişaf etdirilir. Bu model həm təbiəti qoruyur, həm də yerli əhali üçün alternativ gəlir mənbəyi yaradır.

5. Şuşa kimi tarixi şəhərlərdə bərpa işləri aparılarkən ekoloji uyğun materiallardan istifadə edilir.

6. Təbiəti qorumaqla iqtisadi faydanın əldə olunması- əgər ekoloji mühit qorunursa, bu daha çox turist cəlb edir. Təmiz hava, bakirə təbiət, mineral bulaqlar ekoturizmin əsas cazibə elementidir.

## Nəticə

Azərbaycanın turizm sektoru ölkənin iqtisadiyyatında əhəmiyyətli yer tutur. Yeni iş yerlərinin yaradılması, dövlət büdcəsinə gəlirlərin artması, xarici valyuta axınının güclənməsi və yerli bizneslərin inkişafı turizmin iqtisadi təsirlərini əks etdirir. Turizmin davamlı inkişafı üçün investisiyaların artırılması, milli irsin qorunması və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması önəmlidir.

Qarabağ turizmi yaxın illərdə Azərbaycanın iqtisadiyyatında mühüm rol oynayacaq əsas sektorlardan biri ola bilər. Təbii resurslar, zəngin mədəni irs və dövlət dəstəyi bölgəni regionun aparıcı turizm mərkəzinə çevirə bilər.

Turizmin inkişafı bölgənin iqtisadi dirçəlişinə xidmət edirsə, ekoloji qorunma tədbirləri həmin inkişafın dayanıqlığını təmin edir. Əgər təbiətə ziyan vurularsa, turizmin gələcəkdə inkişafı mümkünsüz olar. Buna görə Qarabağda "yaşıl zona" konsepsiyası həm iqtisadiyyat, həm də ekoloji sabitlik üçün əsas strategiyalardan biridir.

## Açıqlama bəyanatı

Müəllif(lər) tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

## Ədəbiyyat və qeydlər:

United Nations World Tourism Organization (UNWTO), International Tourism Highlights. Madrid: UNWTO, 2023.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, "Böyük Qayıdış" proqramı və Qarabağ iqtisadi rayonunun inkişaf istiqamətləri. Bakı, 2023.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycanın turizm strategiyası 2020–2026. Bakı, 2020.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Turizm və iaşə fəaliyyəti üzrə statistik göstəricilər. Bakı, 2025. (https://stat.gov.az)

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Turizm sənayesinin inkişafı üzrə hesabatlar. Bakı,2024. (https://tourismboard.az)

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycanın Regionları. Bakı, 2024. (chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/regions_2024.pdf)

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası konsepsiyası. Bakı, 2022.

**Müəllifin əlaqə məlumatı**

**E-mail ünvanı:** : shahla.alizada@azmiu.edu.az